

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 150 (23.312)

*15 avqust 2019-cu il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisində qəbul



Avqustun 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının Naxçıvana yeni təyin olunmuş Baş konsulu Seyid Əhməd Hüseynini qəbul edib.

Ali Məclisin Sədri muxtar respublikada Baş konsul kimi fəaliyyətə başlaması və Qurban bayramı münasibətilə Seyid Əhməd Hüseynini təbrik etmiş, dost və qonşu ölkələr olan Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasındakı əlaqələrin nümunə gücündə olduğunu bildirmişdir. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında da əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini diqqətə çatdıran Ali Məclisin Sədri ikitərəfli münasibətlərin qarşılıqlı hörmət və ehtirama əsaslandığını vurğulamışdır.

Ali Məclisin Sədri təcrübəli diplomatın muxtar respublikaya Baş konsul təyin olunmasını İran İslam Respublikasının Azərbaycana və onun Naxçıvan Muxtar Respublikasına verdiyi əhəmiyyətin daha bir ifadəsi kimi dəyərləndirmiş, Seyid Əhməd Hüseyniyə fəaliyyətində uğurlar arzulamışdır.

Səmimi qəbula görə minnətdarlıq edən Seyid Əhməd Hüseyni Qurban bayramı münasibətilə təbriklərini çatdırmış, müqəddəs gündə Naxçıvanda diplomatik fəaliyyətə başlamağından məmnunluğunu ifadə etmişdir. İran İslam Respublikasının Azərbaycanla və onun Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini diqqətə çatdıran Baş konsul mövcud əməkdaşlığın daha da genişləndirilməsində səylərin artırılacağını bildirmiş və etimadnaməsini Ali Məclisin Sədrinə təqdim etmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün test imtahanlarına start verilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən 302 vakant vəzifə üzrə müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün 21 iyun 2019-cu il tarixdə elan olunmuş müsabiqənin test imtahanlarına 14 avqust tarixindən start verilib. Artıq ikinci ildir ki, müəllimlərin işə qəbulu müsabiqə əsasında həyata keçirilir. Burada əsas məqsəd müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulunun mərkəzləşdirilmiş qaydada müsabiqə və şəffaflıq əsasında, elektron proqram təminatı tətbiq olunmaqla test imtahanları vasitəsilə keçirilməsi və eləcə də yüksək şəxsi keyfiyyətlərə və ixtisas biliklərinə malik kadrların seçilərək həmin təhsil müəssisələrinə yerləşdirilməsidir.

Müsabiqəyə ən çox Şərur (75), Ordubad (74), Babək (37) və Şahbuz rayonları (37) üzrə vakant vəzifələr çıxarılıb. Həmin vəzifələrin tutulması üçün 599 namizəd sənəd təqdim edib. Vakant vəzifələr sırasında ən çox müraciət İbtidai sinif müəllimliyi (163), İngilis dili (83), Riyaziyyat (60), və İnformatika (58) ixtisasları üzrə qeydiyyata alınıb.

Müsabiqədə hər bir namizədə, ümumilikdə, 80 olmaqla, ixtisas üzrə 40, tədris metodikası və təlim strategiyalarına aid 25, informasiya və kommunikasiya texnologiyalarına aid 15 test tapşırığı təqdim edilir. Bu tapşırıqların yerinə yetirilməsi üçün namizədlərə 120 dəqiqə vaxt verilir və hər bir düzgün cavab bir balla qiymətləndirilir. Vakant vəzifənin tutulması üçün müraciət etmiş namizədlər arasında keçid balını yığmaqla ən yüksək bal toplamış şəxs müvafiq vəzifəyə təyin olunur. Musiqi, təsviri incəsənət, fiziki tərbiyə və texnologiya müəllimləri üçün test tapşırıqlarının 50 faizini (40 bal), stimullaşdırıcı tədbirlər tətbiq olunan müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 60 faizini (48 bal), digər müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 80 faizini (64 bal) düzgün cavablandırmış namizədlər keçid balını toplamış hesab edilirlər.

Qeyd edək ki, obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanların videoçəkilişi də aparılıb. Test imtahanı bitdikdən dərhal sonra hər bir namizədə nəticəyə dair arayış təqdim edilir. Həmin nəticələr gündəlik olaraq komissiyanın rəsmi internet portalında *(www.dqmk.nmr.az)* yerləşdirilir. Test imtahanları 4 sentyabr 2019-cu il tarixədək davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası***
***Ali Məclisinin Sədri yanında***
***Dövlət Qulluğu Məsələləri üzrə***
***Komissiyanın mətbuat xidməti***

## Pensiya və müavinətlər vaxtından əvvəl ödənilib

Muxtar respublikada həyata keçirilən məqsədyönlü islahatlar, iqtisadi və sosial sahədə qarşıya qoyulan vəzifə və tapşırıqların vaxtında yerinə yetirilməsi yeni istehsal sahələrinin və iş yerlərinin açılmasına, məşğulluq səviyyəsinin yüksəlməsinə, müasir infrastrukturun yaradılmasına səbəb olub. İqtisadi sahədə qazanılan nailiyyətlər sosial müdafiə tədbirlərinin də əhatə dairəsinin genişlənməsinə və keyfiyyətinin daha da yaxşılaşmasına müsbət təsir göstərib. Əhalinin həssas qrupuna daxil olan əmək pensiyaçılarının rifah halının yüksəldilməsi ilə bağlı qəbul edilən qərarların muxtar respublikamızda da müvəffəqiyyətlə icrası daim diqqət mərkəzində saxlanılır. Onlara göstərilən xidmətlərin operativliyinin təmin olunması, bu xidmətlərin təqdimedilmə müddətinin azaldılması məqsədilə müxtəlif layihələr həyata keçirilir.

Yaradılmış əlverişli şəraitdən bəhrələnən Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu avqust ayında da pensiyaların maliyyələşdirilməsi sahəsində işləri vaxtından əvvəl başa çatdırıb. Görülmüş tədbirlər nəticəsində bütün növ əmək pensiyaçılarına pensiyaların ödənilməsi tam təmin olunub. Pensiyalar plastik bank kartları vasitəsilə və kənd yerlərində yaşayan pensiyaçıların istəkləri nəzərə alınaraq poçt bölmələri tərəfindən ödənilib. Həmçinin əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinətlər də vaxtlıvaxtında maliyyələşdirilir.



Naxçıvan Muxtar Respubilkası Dövlət Sosial Müdafiə Fondu pensiya və müavinətlərin hər ay vaxtında ödənilməsi və pensiyaçıların rahat şəkildə pensiyalarını alması üçün müvafiq işləri bundan sonra da davam etdirəcək.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Sosial Müdafiə Fondunun***
***mətbuat xidməti***

## Muxtar respublikada taxıl biçini başa çatıb



*Muxtar respublikanın etibarlı ərzaqla təminatında taxılçılıq mühüm sahələrdən biridir. Taxılçılıq əhalinin çörək və digər unlu məmulatlara olan tələbatını ödəməklə yanaşı, həm də heyvandarlığın inkişafında mühüm rol oynayır.*

Kənd təsərrüfatının, o cümlədən taxılçılığın inkişafına göstərilən diqqət və qayğı, məhsul istehsalçılarına sərf etdikləri yanacaq və motor yağlarına görə yardımların, əkilən hər hektara görə gübrələrin, güzəştli şərtlərlə kreditlərin verilməsi və digər mühüm tədbirlər bu sahənin dinamik inkişafını təmin edib.

Görülən işlərin nəticəsi olaraq 2019-cu ilin məhsulu üçün muxtar respublikada 62970 hektar sahədə əkin aparılıb ki, bunun da 33308 hektarını və ya 52,9 faizini taxıl zəmiləri təşkil edib. 2018-ci il ilə müqayisədə taxıl əkini sahələri 825 hektar və yaxud 2,5 faiz artıb. Sahələrin 24729 hektarında buğda, 8579 hektarında isə arpa əkilib. Ümumi əkin sahəsinin 4127 hektarı və yaxud 12,4 faizi Şərur, 10610 hektarı və yaxud 31,8 faizi Babək, 1685 hektarı və yaxud 5,1 faizi Ordubad, 6553 hektarı və yaxud 19,7 faizi Culfa, 5210 hektarı və yaxud 15,6 faizi Kəngərli, 1616 hektarı və yaxud 4,9 faizi Şahbuz, 2472 hektarı və yaxud 7,4 faizi Sədərək rayonlarının, 1035 hektarı və yaxud 3,1 faizi isə Naxçıvan şəhərinin payına düşüb.

Cari ildə taxıl sahələrindən 102984 ton məhsul tədarük olunub ki, bu da 2018-ci ilin göstəricisi ilə müqayisədə 5295 ton və ya 5,4 faiz çoxdur. Yığılan məhsulun 77261 tonu buğda, 25723 tonu isə arpadır. Məhsuldarlıq orta hesabla hər hektardan 30,9 sentner olub.

Əldə olunan məhsulun 13947 tonu və ya 13,6 faizi Şərur, 33707 tonu və ya 32,7 faizi Babək, 4785 tonu və ya 4,6 faizi Ordubad, 18993 tonu və ya 18,5 faizi Culfa, 15316 tonu və ya 14,9 faizi Kəngərli, 4437 tonu və ya 4,3 faizi Şahbuz, 8788 tonu və ya 8,5 faizi Sədərək rayonlarının, 3011 tonu və ya 2,9 faizi isə Naxçıvan şəhərinin payına düşüb.

***Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə taxıl yığımının bölgüsü***




Cari ilin taxıl biçinində orta hesabla 86 kombayn iştirak edib ki, bunun da 77-si sahibkarlara, 9-u isə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə məxsus olub.

Tədarük edilən buğdanın bir kiloqramının cari ildə 35, arpanın isə 30 qəpikdən mərkəzləşmiş qaydada satın alınması taxıl əkininə və onun vaxtında itkisiz yığılmasına marağı daha da artırıb.

Muxtar respublikada məhsul istehsalçılarının texnika ilə təmin olunması məqsədilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 309 ədədi 2019-cu ilin yanvar-iyul aylarında olmaqla, ümumilikdə, 2684 ədəd müxtəlif adda kənd təsərrüfatı texnikası və avadanlığı alınaraq muxtar respublikaya gətirilib. Cari ilin yanvar-iyul aylarında 182 ədəd müxtəlif adda kənd təsərrüfatı texnikası və avadanlığı lizinq yolu ilə məhsul istehsalçılarına verilib, 2 ədədi nağd yolla satılıb.

Əkinçiliyin inkişafında başlıca şərtlərdən biri də məhsuldar toxum sortlarının yetişdirilməsidir. Yerli və rayonlaşdırılmış toxum sortlarından istifadə olunmaqla yetişdirilən toxum sortları muxtar respublikanın torpaq mülkiyyətçiləri və fermer təsərrüfatları tərəfindən istifadə edilməkdədir. Hazırda muxtar respublikada 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir.

Taxılçılığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, məhsuldar toxum sortlarından istifadə, suvarma şəbəkələrinin genişləndirilməsi və əkin sahələrinin şırım üsulu ilə suvarılması bu sahənin inkişafına yeni imkanlar yaratmaqdadır.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Statistika Komitəsinin***
***mətbuat xidməti***

# Babək rayonu yeni inkişaf mərhələsində

*Naxçıvan... Ulu və müqəddəs, bəşər mədəniyyətinin yaşıdı olan bu torpağın zəngin keçmişi ilə yanaşı, bugünkü tərəqqisi, əldə etdiyi sabitliyi, intibah yolu ilə də öyünməyə mənəvi haqqı var. Tarixçilər, salnaməçilər bir faktın üzərində məxsusi dayanırlar ki, muxtariyyətinin 95 yaşını qeyd edən Naxçıvan öz şanlı tarixinin heç bir dövründə bugünkü kimi inkişaf etməmişdi. Ölkə başçısının Naxçıvana olan davamlı diqqət və qayğısı, muxtar respublika rəhbərinin müstəsna əməyi, naxçıvanlıların yurd, Vətən sevgisinin bəhrəsindən yaranan qədim diyarın müasir siması Nuh yurduna gələn siyasətçilərin, elm adamlarının, turistlərin, idmançıların təəssüratlarını bəzəyir. Muxtar respublikanın ərazisinə və əhalisinə görə ən böyük yaşayış məntəqələrindən olan Babək rayonunda əldə olunan nailiyyətlər də sistemli və düzgün müəyyənləşdirilmiş fəaliyyətin məntiqi nəticəsidir.*



35 kənd və 1 qəsəbədən ibarət olan Babək rayonu Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin himayə və qayğısı sayəsində, demək olar ki, yenidən qurulub. Rayonun bütün yaşayış məntəqələrini əhatə edən kompleks quruculuq tədbirləri nəticəsində bu gün ən ucqar dağ və sərhəd kəndləri belə, abadlaşdırılıb. Aran kəndləri hesab olunan Nehrəmdə, Qahabda, Güznütdə, Sirabda, Zeynəddində yaradılan müasir şərait bu gün dağ və sərhəd kəndləri Gərməçataqda, Yuxarı və Aşağı Buzqovda, Nəhəcirdə, Payızda da mövcuddur. Ümumiyyətlə, hər il rayonun hansısa yaşayış məntəqəsini, emal və sənaye sahəsini əhatə edən quruculuq işləri aparılır. Cari ilin ilk rübündə isə rayonda tikinti-quraşdırma işlərinə 34 milyon 22 min 900 manat həcmində investisiya yönəldilib. Bu dövrdə Kültəpə və Gülşənabad kəndlərində yeni məktəb binalarının, kənd və xidmət mərkəzlərinin tikintisi aparılıb, hər iki yaşayış məntəqəsinin daxili yolları abadlaşdırılıb, məhəllələrə içməli su xətti çəkilib. Bundan başqa, rayon Baytarlıq İdarəsi və Süni Mayalanma Mərkəzinin tikintisi də sürətlə aparılır.

Ötən əsrin 90-cı illərində muxtar respublikanın düşdüyü ağır vəziyyət, yaşadığı böhran, xüsusən özünü enerji təsərrüfatında büruzə verirdi. Qədim diyarda elektrik enerjisinin fasilələrlə verilməsi istehsal sahələrinin də fəaliyyətini iflic vəziyyətə salmışdı. Naxçıvan şəhərində və ətraf kəndlərdə fasilələrlə olsa belə, verilən elektrik enerjisinə uçqar dağ kəndlərinin əhalisi günlərlə həsrət qalırdı. Yalnız ulu öndər Heydər Əliyev siyasi fəaliyyətinin Naxçıvan dövründə İran və Türkiyə ilə apardığı diplomatik danışıqlar sayəsində enerji nəqlinə nail ola bildi. Sonrakı illərdə dahi şəxsiyyətin bu sahədə müəyyənləşdirdiyi yol Naxçıvanın gecələrini də gündüzləri kimi işığa qərq etdi. Bu gün muxtar respublika ərazisindəki mövcud elektrik stansiyalarından dördü Babək rayonunda yerləşir. İyunun 7-də Ali Məclis Sədrinin iştirakı ilə rayon Elektrik Şəbəkəsi üçün yeni inzibati binanın və yarımstansiyanın istifadəyə verilməsi bu sahədəki işlərin daha da təkmilləşdirilməsinə stimul olub.

Həmin gün Naxçıvan Yaşıllaşdırma Xidmətinin tingçilik sahəsi üçün yeni kompleks və müasir ağacyetişdirmə sahəsi – "İqlim otağı" da istifadəyə verilib. Ali Məclisin Sədri açılış mərasimində deyib: ***"Ötən əsrin 90-cı illərinin acı nəticələri muxtar respublika təbiətinə də təsir etmiş, ağaclar kütləvi qırılmış, yaşıllıqlar məhv edilmişdi. 1995-ci ilin statistikasına əsasən həmin dövrdə muxtar respublikada yaşıllıqlar ümumi ərazinin 0,6 faizini təşkil edirdi. Lakin ötən dövrdə həyata keçirilən yaşıllaşdırma tədbirlərinin nəticəsidir ki, bu gün muxtar respublikada ümumi ərazinin 20 faizə yaxını yaşıllıqlardır. Həmçinin muxtar respublika ərazisinin 27 faizi xüsusi mühafizə olunur, nadir ağac və bitki növləri qorunur, eyni zamanda mütəmadi yaşıllaşdırma tədbirləri həyata keçirilir".***

Qeyd edək ki, bu günə kimi muxtar respublikada müxtəlif tinglər və gül kollarına olan tələbatın bir qismi idxal hesabına ödənilirdi. Bu isə vəsaitin ölkə xaricinə çıxması deməkdi. Müasir avadanlıqlarla təchiz olunan "İqlim otağı"nda yaradılan şərait imkan verib ki, bəzək kolları, həmişəyaşıl tinglər, müxtəlif güllər daha tez yetişsin və ərsəyə gəlsin.









### *Məhsul – 2019*

Babək rayonu aqrar sahənin dinamik inkişaf etdiyi bölgələrdən biri kimi tanınır. Muxtar respublika əhalisinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində məxsusi rolu olan babəklilər hər il rayonda yeni meyvə bağları salır, istehsal sahələri, heyvandarlıq təsərrüfatları yaradırlar. Bu il Naxçıvan Muxtar Respublikası üzrə ən çox taxıl əkini Babək rayonunda aparılıb və bu məntiqə uyğun olaraq ən çox məhsul tədarük edilən bölgələrdən biri olub. 2019-cu ilin məhsulu üçün 16 min 172 hektar sahədə əkin aparılıb və taxılçılıq mühüm istiqamət kimi diqqətdə saxlanıldığı üçün əkinlərin 10 min 610 hektarını taxıl təşkil edib. Ötən il ilə müqayisədə taxıl əkini sahəsi 84 hektar artıb. Tədarük olunan məhsula gəldikdə isə biçin kampaniyası itkisiz və mütəşəkkil qaydada aparılıb, sahələrdən 33 min 707 ton taxıl yığılıb.

Müvafiq dövlət proqramlarına uyğun olaraq Babək rayonunda tütünçülüyün və üzümçülüyün inkişafı da diqqət mərkəzində saxlanılıb. Hesabat dövrü ərzində Cəhri kəndində "Cahan Tabak" Beynəlxalq Məhdud Məsuliyyətli Cəmiyyətinin Tütün Yetişdirmə Mərkəzi tərəfindən Tütün Yetişdirmə Təsərrüfatı yaradılıb. Ümumiyyətlə, bu dövrdə rayonda 18 hektar sahədə tütün əkilib və hazırda yığım davam etdirilir. Tütün istehsalı ilə məşğul olan yeni təsərrüfatların yaradılması həm də yeni iş yerləri deməkdir.

Rayonda üzümçülüyün inkişafı istiqamətində görülən işlər yeni bağların salınmasına, mövcud təsərrüfatların daha da genişləndirilməsinə imkan verib. Belə ki, rayonun Nehrəm kəndindəki "Sumqala" üzümçülük təsərrüfatında istehsal olunan məhsullar bu ildən daxili tələbatı ödəməklə yanaşı, paytaxt Bakı və Rusiya bazarlarına da ixrac olunur. 180 hektar ərazini əhatə edən təsərrüfatda üzümdən hazırlanan məhsulların uzun müddət saxlanılmasına imkan verən və tutumu 2500 ton olan soyuducu anbarın da tikintisi davam etdirilir.

2019-cu ilin "Ailə təsərrüfatları ili" elan olunması Babək rayonunda yeni ailə təsərrüfatlarının yaradılmasına, mövcud təsərrüfatlarda isə məhsul istehsalının artmasına təkan verib. Bu ilin ilk rübündə rayonun Zeynəddin, Nehrəm və Qaraqala kəndlərində dövlət maliyyə dəstəyi hesabına yeni heyvandarlıq təsərrüfatları yaradılıb. Nəcəfəli Dizə kəndindən olan fiziki şəxs Vüsar Məmmədov isə yeni istixana təsərrüfatının yaradılmasını başa çatdırıb.

### *Məşğulluq məsələlərinin həlli diqqət mərkəzindədir*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun daha da artırılması üzrə Dövlət Proqramı"nın icrası rayonda işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə şərait yaradıb. Belə ki, cari ilin birinci rübündə rayonda 327 yeni iş yeri yaradılıb. Bunun 324-ü və ya 99 faizi daimi iş yerləridir. Bəhs olunan dövrdə muxtar respublika rəhbərinin tapşırığına əsasən uzun müddət ünvanlı dövlət sosial yardımı alan və fərdi təsərrüfatlarını qurmaq üçün müraciət edən daha 7 aztəminatlı ailə müəyyənləşdirilib və onlardan 6-na yanında balası olan iribuynuzlu mal-qara, birinə isə 10 xırdabuynuzlu heyvan verilib.

*Biri var tarixi kitablardan öyrənəsən, biri də var tarix sənin gözlərin qarşısında günbəgün, anbaan yazıla. Bu tarixin bir adı var: Naxçıvanın inkişaf tarixi. Biz bu tarixə toxuna bilirik, onunla böyüyürük, yaşa doluruq. Bir vaxtlar taleyin ümidinə buraxılmış "tənha ada"nı xatırladan Naxçıvan bu gün inkişaf, tərəqqi, yenilik, müasirlik qitəsinə çevrilib. Babək rayonu isə qədim diyarın bir parçası kimi 2019-cu ilin ikinci yarısında əldə edəcəyi nailiyyətlərlə, yeni quruculuq ünvanları ilə, açılan yeni iş yerləri, emal və istehsal sahələri ilə hələ çox zirvələri fəth edəcək.*

**Muxtar RZAZADƏ**
**"Şərqin səhəri" qəzetinin redaktoru**

# Yeni laboratoriya suyun ekoloji vəziyyətinə nəzarəti təmin edir

*Son illər ətraf mühitin mühafizəsi sahəsində görülən işlər muxtar respublika ərazisində əlverişli ekoloji şəraitin qorunub saxlanılmasına zəmin yaradıb. Xüsusilə yaşıllıqların artırılması, flora və faunanın mühafizəsi sahəsində görülən işlər öz nəticəsini verir. Muxtar respublikada əhalinin sağlam ekoloji mühitdə yaşamasına xüsusi diqqət yetirilir. Bu tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Sədərək Rayon Su Monitorinq Laboratoriyası yaradılıb. Laboratoriya üçün müasir avadanlıqlarla təchiz edilmiş yeni inzibati bina tikilib, iyul ayının 2-də istifadəyə verilib.*



Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən bütün yeraltı və yerüstü suların analiz prosesini həyata keçirən bu laboratoriyanın qurulmasında əsas məqsəd suyun ekoloji vəziyyətinə nəzarət, su mənbələrinin çirklənməsinin qarşısının alınması və suda yaşayan canlıların qorunmasıdır. Yeni laboratoriyanın digərlərindən fərqi həm də qonşu ölkələrdəki çaylarda suyun ekoloji vəziyyətinə nəzarət etməkdir.

Bu günlərdə həmin laboratoriyada olduq. Baş laborant – müdir əvəzi Yalçın Əliyev bildirdi ki, ölkə əhəmiyyətli Su Monitorinq Laboratoriyası dünyada yerləşən su monitorinqi laboratoriyalarının xəritəsinə daxil edilib. Onun Ermənistanla sərhəd yaşayış məntəqəsi olan Sədərək rayonunda yerləşməsi həm də müşahidə olunacaq problemlərə vaxtında müdaxilə etməyə imkan verir. Ona görə də işə məsuliyyətlə yanaşılır, analizlərin dəqiq aparılması diqqətdə saxlanılır.

Laboratoriyada analiz, nümunələrin hazırlanması və qəbulu üçün xüsusi otaqlar mövcuddur. Bu otaqlarda bir çox avadanlıq və cihaz yerləşdirilib. Avadanlıqlar içərisində fərqli funksiyalı kolbalar, kimya stəkanları, menzurkalar, pipetkalar və digərləri var. Bu avadanlıqlar müxtəlif ölçülərdədir. Hər bir cihaz özünəməxsus iş prinsipinə malikdir. Bu cihazlara suda radioaktiv çirklənmənin və ağır metalların təyini, konduktometr (suda elektrik keçiriciliyi), codluluq, duzluluq, oksimetr (suda həll olmuş oksigenin təyini), sorucu şkaflar (iş zamanı yaranan iyin və ya qazın çölə xaric edilməsi), kimyəvi maddələri saxlamaq üçün şkaf, termoreaktor (nümunənin qızdırılması), teledyne (nümunə götürən cihaz), distilyator (suyun saflaşdırılması), termostat (avadanlıqların qurudulması), uğur (soyuducu şkaf), laboratoriya duşu (ani qəza zamanı bədən nahiyəsinin yuyulması), spektrofotometr üçün test kitləri aiddir. Laboratoriyada suyun radioaktiv çirklənməsi, suda olan ağır metal ionlarının təyini, suyun codluğu, duzluluğu, elektrik keçiriciliyi, turşuluq, qələvilik və suda həll olmuş oksigen miqdarı təyin edilir.

Hazırda laboratoriyaya Araz çayı, Naxçıvançay, Şirarxı, Arpaçay sularından nümunələr gətirilərək analiz prosesləri davamlı olaraq həyata keçirilir. Əvvəlcə müəyyən olunmuş məntəqədən teledyne cihazı vasitəsilə su nümunəsi götürülür. Bu cihaz fərqli ölçüdə və fərqli vaxtlarda aralıqlı olaraq su nümunəsi götürmək funksiyasına malikdir. Daha sonra götürülmüş su nümunəsi laboratoriyada nümunə qəbulu otağında qeydə alınır. Sonra prosedurlara uyğun olaraq analiz üçün hazırlanır və ağır metalların təyini üçün su nümunəsi spektofotometr adlanan cihaza qoyulur. Burada bir çox ağır metal təyin edilir. Bununla yanaşı, hazırlanmış su nümunəsi Tri Carb cihazına qoyularaq suda H3 tritiumun radioaktivlik dozası müəyyən olunur. Tri Carb üçün hazırlanmış su nümunəsi minimum 1 saat qaranlıq şəraitdə saxlanılmalıdır. Analiz 1 saat ərzində aparılmalıdır. Ötən ay Naxçıvançay, Arpaçay, Araz çayı və Şirarxından götürülərək su nümunələrinin analiz nəticələrinin ekoloji normativlərə uyğun olduğu qeydə alınıb.

Göründüyü kimi, laboratoriya fəaliyyətə başladığı qısa vaxt ərzində öz işini Ali Məclis Sədrinin kollektiv qarşısında qoyduğu vəzifələrin icrası istiqamətində qurub.

**Muxtar MƏMMƏDOV**



imkanlar açır. Kəndin ağsaqqal ziyalılarının söhbətlərinə görə, hətta bir vaxtlar, ötən əsrin 80-ci illərində burada iqlim kurortu da yaradılması gündəmdə olub.

Kükü bağlar məskənidir... Kükü alması kimi yaxşı tanınan və yerli şəraitə uyğunlaşaraq özünəməxsus dad-tamı və mineral tərkibi ilə seçilən alma sortlarından başqa burada yetişən armud, cəviz, almaxara, gilas, gilənarın da xüsusi keyfiyyəti vardır. Kənddəki bostanlar arandakından düz bir ay gec yetişsə də, iyun və

*Turizm*

# Kükündə yay turizmi

*Naxçıvanın qızmar yay günləri davam etdikcə, qışdakı kimi gecələr isti yorğana bürünüb yatmağı arzulayanlar bunu nağıllarda yox, cəmisi birsaatlıq rahat yolla Küküyə gəlməklə tapa bilərlər. Bu mənada, Şahbuzun dilbər guşəsi Kükü kəndi bu rayonun ən böyük yaşayış məntəqəsindən biri olmaqla bərabər, həm də yay-kamp turizmi üçün də ideal məkanlardan biridir. Son illər buraya istirahət üçün gələnlərin marağının artması, yerli əhalidə turistlərin yerləşdirilməsi üçün hosteltipli evlərin yaradılması və kənd infrastrukturunun buna çox əlverişli olması belə deməyə əsas verir.*

Kükünün təbiəti çox rəngarəng və bənzərsizdir. Bir çoxlarının nəzərində Kükü kəndi dağ boyda qayaların üzük qaşı kimi səf çəkdiyi zirvələri ilə yadda qalsa da, burada digər təbii cazibə elementləri istənilən qədərdir. Həm də ilin dörd fəslində. Kükündə yazın ilk ılıq nəfəsi duyulduqca sürətlə canlanıb boy atan yaşıl təbiət payız girənə qədər öz təravətini saxlayır. Qabaqlıdan Qanlıgöldək güneylə quzeyin bir-birini əvəzlədiyi sıra dağların döşündəki laləli-nərgizli təpələr insanın ruhunu oxşamaqla küsülüləri də barışdırır. Naxçıvançayın ən böyük qolu olan Kükü çayı Gurbulaqdan xan Arazadək uzun yolçuluğuna məhz buradan bu gözəlliyin çeşninə mavi rəng qatır. Xülasə, Kükündən danışanda, sanki nənəsinin danışdığı sehrli nağılın ovsunundan bir anda oyanıb onu qucaqlayan bal nəvələrin arzularının çiçək açdığı cənnət guşəsi yada düşür.





Kəndin gözəlliklərindən danışmaq üçün Küküyə gəlmək, burada qalmaq lazımdır. Doğrudur, Naxçıvan şəhərindən başlayaraq Kükü kəndi istiqaməti üzrə turizm marşrutu müasir turistlər tərəfindən kifayət qədər tanınmasa da, virtual aləmdə və könüllü gənclər tərəfindən bu kənd artıq çoxdan kəşf edilib. Bunun üçün isə burada hər kəsin maraq dairəsinə uyğun hər cür cazibə elementi vardır. Kimisi üçün sərin yay gecələri, kimisi üçün yüksəkkeyfiyyətli kənd təsərrüfatı məhsulları, kimisi üçün yaxşı qorunub yaşadılan və əslində, milli sərvətimiz olan kənd adətləri, kimisi üçün isə yaşıl təbiətdə əyləncə... Odur ki, yay tatili günlərində çox deyil, iki-üç həftəni Kükü kəndində keçirənlər, əslində, bunların hamısından dada bilmək, dolğun rekreasiya olunmaq imkanı əldə edirlər.

Yay-kamp turizmi müasir dövrdə geniş yayılıb. Tələbə-gənclər, ailəvi istirahətə çıxanlar və ümumilikdə, təbiət həvəskarları üçün bu turizm növü çox cazibədardır. Kükü kəndində yay-kamp turizmi üçün coğrafi mövqe, landşaft, iqlim, su, ekoloji şərait və insan resursları kimi faktorları nəzərə aldıqda burada ekoturizmin bu yarımnövünün inkişafından danışmaq yerinə düşər. 1500 nəfərə yaxın əhalisi olan Kükü kəndində onlarla iri ailə təsərrüfatçısı və torpaq mülkiyyətçiləri vardır. Kükü dəniz səviyyəsindən 2 min metr yüksəklikdə yerləşdiyi üçün burada istehsal olunan məhsulların, xüsusən balın ayrı bir keyfiyyəti vardır. Elmi ədəbiyyatlarda dərman bitkilərinin yayılma arealına görə təkcə Cənubi Qafqazda deyil, bütün Avropada seçilən bir ərazi olan Dərələyəzin cənub yamacları – Dərəboğazındakı arı pətəkləri də bal şirəsini məhz bu unikal dərman bitkilərindən çəkir. Odur ki, Kükünün saf təbiəti və florası burada herbari turizmi ilə yanaşı, həm də sağlamlıq turizmi üçün geniş imkanlar açır.

iyul aylarının bol Günəşi ilə qidalanan tərəvəz məhsullarının dadından doymaq olmur. Odur ki, yay aylarında kəndə istirahətə gəlmiş turistlərin süfrəsinə düzülmüş yerli məhsullar qastronomiya turizmi həvəskarları üçün də yaxşı təəssürat yaradır.

Yay günləri uzun olsa da, Kükü və eləcə də diyarımızın belə dağlıq kəndlərinə gəlmiş qonaqlar üçün zaman çox sürətlə keçir. Şübhəsiz, yandırıcı Günəşin olmadığı, birbirindən maraqlı kənd həyatı elementləri ilə zəngin və ən əsası doğulduğu doğma torpağa möhkəm bağlı insanların yaşadığı bir kənddə keçirilən tətil günləri səhərin sübh saatlarından başlasa da, axşamın necə düşdüyünü adam heç özü də bilmir. Yay aylarında şəhər sakinləri, xüsusən məktəbli uşaqlar gecə gec yatıb, səhər gec oyanmağa adət etsələr də, kənddə bunun əksinə olan həyat ritmi insanların fizioloji gümrahlığına da çox kömək edir.

Turizm inkişaf etdirildiyi ərazidə bütün müsbət sosial effektlərə təkan verən ən mühüm amillərdən biridir. Başda məşğulluq olmaqla, iqtisadi və sosial həyatda insanları düşündürən bir çox problemlər məhz turizmin sayəsində, necə deyərlər, özözünə həll olur. Ona görə də dövlətin yaratdığı şəraitdən bəhrələnərək turizm kamplarının yaradılması Kükü kəndi əhalisinin ürəyincədir. Yerli sakinlər əmindirlər ki, nə qədər çox turist gələrsə bu, bir o qədər çox qazanc, təbii ehtiyatların dəyərinin yüksəlməsi, sosial həyatın daha da canlanması və təkcə Kükünün deyil, bu istiqamətdəki digər kəndlərin də nəqliyyat çətinliklərinin həll olunması deməkdir.

**Əli CABBAROV**

*Yeni nəşrlər*

# Geniş oxucu kütləsi üçün qiymətli mənbə

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısının nəticəsində bu gün doğma diyarımızda alim və tədqiqatçılar, eləcə də yaradıcı insanlar üçün hərtərəfli şərait yaradılıb, müasir avadanlıqlarla təchiz olunan nəşriyyat və mətbəələr istifadəyə verilib. Həmçinin diyarımızın qədim tarixi, zəngin mədəni irsi, görkəmli şəxsiyyətləri və müasir sosial-iqtisadi inkişafı barədə yeni kitabların nəşri diqqətdə saxlanılır, hər il üçün nəşr planı tərtib olunur.*




Bildiyiniz kimi, Yaxın Şərqin mühüm mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan şəhəri İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Mədəniyyət nazirlərinin VI konfransında 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunmuşdu. Ötən il bununla bağlı bir çox tədbirlər həyata keçirilib, türk-islam mədəniyyəti abidələri bərpa edilib, "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" loqotipi və suvenirlər hazırlanıb, üzərində loqotip əks olunmuş döş nişanları, zərflər, poçt markaları buraxılıb. Eyni zamanda albom-kataloqlar, jurnallar, İslam dini və onun dəyərləri ilə bağlı kitablar nəşr olunub.

Belə nəşrlərdən biri də "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı (7-8 sentyabr 2018-ci ildə keçirilmiş beynəlxalq konfransın materialları)" kitabıdır. AMEA-nın həqiqi və müxbir üzvləri tərəfindən hazırlanmış kitabın ilk səhifələrində "Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı və Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması ilə bağlı Tədbirlər Planı öz əksini tapıb.

Yeni nəşrdə diqqətçəkən nüanslardan biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin ilk iclasındakı çıxışı zamanı söylədiyi dəyərli fikirlərdir: ***"... İSESKO-nun qərarı ilə 2007-ci ilin noyabrında keçirilmiş beşinci konfransda Azərbaycanın paytaxtı Bakı şəhəri 2009-cu il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunmuşdur. 2009-cu ilin oktyabrında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin Bakı şəhərində keçirilən altıncı konfransında isə Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunmasına dair qərar qəbul edilmişdir. Bu qərar əsaslıdır. Ona görə ki, Azərbaycanın 5 minillik tarixə malik qədim şəhəri olan Naxçıvan İslam mədəniyyəti nümunələri ilə zəngindir və bəşər sivilizasiyasına dəyərli töhfələr vermişdir. Qeyd olunanlar, eləcə də 2009-cu ildə Bakı şəhərinin İslam Mədəniyyəti Paytaxtı elan olunması ilə bağlı qazanılan təcrübə 2018-ci ildə Naxçıvan şəhərində tədbirlərin yüksək səviyyədə keçiriləcəyinə əminlik yaradır".***

Konfrans materiallarında öz əksini tapan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin "Naxçıvan: İslamın ən güclü dayaqlarından biri" adlı məqaləsi maraqlı faktları ilə diqqəti cəlb edir. O yazır ki, Naxçıvan şəhəri qədim və zəngin tarixə malikdir. Həmin zənginliyi yaradan buranın qədim sakinləri və Naxçıvanın Böyük İpək Yolu üzərində yerləşməsidir. Şəhərin Yaxın və Orta Şərqin şəhərləri, eləcə də digər ölkələrlə çoxsahəli mədəni-iqtisadi əlaqələrinin artması onun inkişafına əsaslı təsir göstərmişdir. Böyük İpək Yolu ilə hərəkət edən ticarət karvanları, bölgəyə gələn tacirlər, səyyahlar, alimlər Naxçıvanın bu inkişafını görmüş, öz yol qeydlərində bu haqda bəhs etmişlər. Ona görə də orta əsr mənbələrində Naxçıvan ərazisi, xüsusilə Naxçıvan şəhəri haqqında çox dəyərli və maraqlı məlumatlar vermişlər.

Kitabda Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlının "Bölgədə İslam dininin və mədəniyyətinin təşəkkülündə Naxçıvanın yeri və rolu", İstanbul Universitetinin professoru Oqtay Bəllinin "Naxçıvan ərazisində yerləşən türk-islam abidələrinin Türk dünyası üçün əhəmiyyəti", həmçinin "Naxçıvan torpaqlarında bərpa edilən türk-islam abidələri", Ərzurum Atatürk Universitetinin professoru Hüseyn Yurttaşın "İslam motivli qoşa minarəli baştağların quruluşunda Naxçıvanın əhəmiyyəti" və digər dəyərli elmi məqalələr diqqəti cəlb edir.

İnanırıq ki, yeni nəşr qədim diyarımız, burada minillərboyu mövcud olmuş və indi də qorunaraq təbliğ edilən islami dəyərlərin, Naxçıvanın çoxəsrlik qədim və zəngin tarixi ilə İslam mədəniyyətinin formalaşmasında və inkişafındakı özünəməxsus rolunun əsaslandırılmış elmi şəkildə təqdimatı baxımından geniş oxucu kütləsi üçün qiymətli mənbə olacaq. Yeni nəşr "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı" beynəlxalq konfransının bu silsilədən olan çoxsaylı əhəmiyyətli tədbirlərdən biri kimi mühüm elmi dəyəri kəsb etdiyini də ortaya qoyur.

**Gülcamal TAHİROVA**

## Artilleriya və minaatan bölmələri qəfil yoxlanılıb

*"Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinə uzlaşdırma planı"na əsasən birinci eşelonda yerləşən artilleriya və minaatan bölmələri qəfil yoxlanılıb.*



Yoxlama zamanı həyəcan siqnalı ilə qaldırılan bölmələr atəş mövqeyi rayonlarına və komanda müşahidə məntəqələrinə çıxarılaraq döyüş tətbiqinə hazırlanıb. Atəş mövqeyi rayonlarından planlı və plandankənar hədəflərə döyüş atışları icra edilib.

Sonra artilleriya və minaatan bölmələri ehtiyat atəş mövqeyi rayonlarına və komanda müşahidə məntəqələrinə yerdəyişmə edərək yeni aşkar olunmuş hədəfləri məhv ediblər.

Qəfil yoxlama zamanı əsas diqqət bölmələrin döyüş tapşırıqlarını yerinə yetirməsinə, şəxsi heyətin funksional vəzifələrinin icrasına və ixtisas hazırlığı üzrə praktik vərdişlərinin təkmilləşdirilməsinə yönəldilib.

## Eksponatların sayı artır

Muxtar respublikamızda ən çox ziyarət edilən məkanlardan olan açıq səma altında Naxçıvan Döyüş Şöhrəti Muzeyindəki eksponatların sırasına zenit-raket kompleksləri və döyüş təyyarələri daxil edilib.



Qeyd edək ki, ötən il 26 adda eksponatla fəaliyyətə başlayan muzeydə bu gün 36 adda silah, texnika və qurğu mövcuddur. Hazırda burada müxtəlif illərdə döyüş növbətçiliyinə qəbul edilmiş və döyüş yolu keçmiş haubitsa, top və minaatanlar, zenit-raket kompleksləri, döyüş-nəqliyyat vertolyotu, döyüş təyyarələri, zirehli transportyorlar, dartıcılar, eləcə də müxtəlif hərbi təyinatlı avtomobillər nümayiş olunur.

Muzeydə hər bir döyüş texnikası audioməlumatlandırma sistemi ilə təmin edilib.

## Məşğələlər keçirilib

Əlahiddə Ümumqoşun Orduda tabor, divizion komandirləri və müavinləri ilə komandir hazırlığı məşğələləri keçirilib.

Məşğələlərdə zabitlərin döyüş hazırlığı üzrə nəzəri bilikləri və praktik vərdişləri yoxlanılıb. Əsas məqsəd zabitlərin əməliyyatı planlama vərdiş və səriştələrinin real tapşırıqlara uyğun təkmilləşdirilməsi, fərdi bacarıq və peşəkarlıq səviyyələrinin artırılması, yeni normativlər üzrə imtahanların qəbulu metodikasının işlənilməsi olub.

## Təlim-metodiki toplantı olub

*Əlahiddə Ümumqoşun Orduda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsini bu il bitirmiş, hərbi hissələrdə müvafiq vəzifələrə təyin edilərək xidmətlərini davam etdirən zabitlərlə təlim-metodiki toplantı keçirilib.*



Toplantıda əsas diqqət zabitlərin taktiki biliklərinin, qərar qəbuletmə bacarıqlarının artırılmasına, xidmətə düzgün istiqamətləndirilmələrinə yönəldilib.

Zabitlərin Naxçıvan Muxtar Respublikasının gəzməli-görməli, tarixi-mədəni yerlərinə və muzeylərinə ekskursiyaları da təşkil olunub. Həmçinin zabitlər Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələrində, ön xətdəki mövqelərində şəxsi heyətin sosial-məişət və xidmət şəraiti ilə tanış olublar.

**Nəriman NƏCƏFOV**

*Nümunəvi ailələrimiz*

# 70 illik səadət...

*Ailə öz üzvlərini formalaşdırıb cəmiyyətə təqdim edən kiçik bir toplum olsa da, milli mentalitetimizdə onun böyük mənəvi çəkisi var. Bu məsuliyyətli yükü daşımaq, demək olar ki, bizim həyat amalımızın əsasını təşkil edir. Ona görə ki, cəmiyyətimizdə hər kəs öz ailəsi üçün çalışır, əsl xoşbəxtliyi bunda görür. Ailəsinə dəyər verib, onu yaşadan isə öz xalqının, dövlətinin gələcəyinə xidmət edir. Çünki o, nümunəvi ailə üzvü kimi cəmiyyətə yararlı nəsil yetişdirir.*

Cəmiyyətimizdə nümunəvi ailə dedikdə həm də uzun ömür sürən ailələr nəzərdə tutulur. Onlardan biri də Ordubad rayonunun Bist kəndində yaşayan Tahirovlar ailəsidir. Təməli 70 il bundan öncəyə dayanan bu ailəni, əslində, lap çoxdan tanıyıram. Demək olar ki, özümü və dünyanı dərk etdiyim gündən... Bu ailənin varlığı mənim həyatımda əhəmiyyətli rol oynayıb. Buna görə də 30 illik bir dövrünə şahidlik etdiyim iki insanın birgə keçən ömür hekayəsini yazmağı qərara aldım.

Mahmud Tahirov 1927-ci ildə Nürgüt kəndində doğulub. Qonşu Xurs kəndində dünyaya göz açan Tutu nənənin isə bu il 90 yaşı tamam oldu. Onların taleyi isə 70 il bundan öncə, 1949-cu ilin Novruz bayramında – martın 21-də birləşib.

Əslində, bu iki dünyagörmüş insanı canlı tarix kimi qəbul edirəm. O dövrün ağrılı, acılı, müharibələrlə dolu illərini onların dilindən, xatirələrindən çox eşidib, təsəvvürümdə çox canlandırmışam. Gəlin onlarla sizi də tanış edim. Başlayaq 92 yaşlı Mahmud Tahirovdan...

Ailənin 7 övladının ən böyüyü olan Mahmud kişinin ömrünün gənc illəri məşəqqətlə keçib. Atası Əli Tahirov dövrünün tanınmış ziyalılarından olub, xalqının maariflənməsinə can yandırıb. Öz evində məktəb açıb, ətraf kəndlərin uşaqlarının təhsil almasına səy göstərib. Mahmud kişi özü də elə bu məktəbin yetirməsi olub və sonralar qonşu Xurs kəndindəki 7 illik məktəbdə təhsilini davam etdirib. Elə Tutu nənə ilə tanışlıq da həmin illərə təsadüf edib. Bu gənclik məhəbbəti nümunəvi 70 ilə aparan ilk addım olub...

Onların ilk sevgi etirafı vaxtilə həmin məktəbdə öyrəndikləri hərflərlə həkk etdikləri kağız parçasında yaşayır. İndi də o məktubları ən əziz, ən şirin xatirə kimi qoruyub saxlayırlar. Lakin bu ülvi məhəbbəti uzun illər qəlblərində bir sirr kimi yaşatmalı olublar. Çünki onların gəncliyi Sovet hakimiyyətinin totalitar rejimi və İkinci Dünya müharibəsinin cənginə aldığı o dövrlərə təsadüf edib. Mahmud kişinin məktəb açıb, xalqın maariflənməsinə çalışan atası bu xeyirxah əməlinə görə repressiya qurbanı olub. Qardaşları isə uzun illər müharibədə iştirak etdiklərindən ailənin əsas yükünü o daşıyıb.

Bəli, uzun illər müharibənin gətirdiyi ağır, itkilərlə dolu günlərini yaşayan Mahmud baba yaşlı, xəstə anasını və bacısını dolandırıb, evinin, ailəsinin tək dayağı olub. Bütün bunlara görə ürəyində bəslədiyi saf məhəbbəti və oxumaq həvəsini boğmaqla yaşayıb. Lakin qəlbindəki bu arzular heç vaxt sönməyib...

Nə yaxşı ki atasının aqibətini qardaşları da yaşamayıb, müharibədən sağ-salamat qayıdıblar. Müharibə bitdikdən sonra Mahmud Tahirov təhsil almaq arzusundan dördəlli yapışıb. Ailəsini qardaşlarının himayəsinə verərək Ordubaddakı pedaqoji məktəbə yollanıb, daha sonra Naxçıvanda yeni açılan 2 illik Müəllimlər İnstitutunda ali təhsil alıb.

Mahmud babanın ömür-gün yoldaşı Tutu nənənin gəncliyi də ən az onunku qədər çətin keçib. Bəlkə də, daha artıq... Müharibənin ağır və ağrılı həyatını daha çox kişilər çiynində daşısa da, gözü yollarda qalan qadın iztirabı, qadın göz yaşı qədər insan ürəyini heç nə dağlaya bilməz. Biz, bugünkü gənclər tam təsəvvür edə bilməsək də, orta və yaşlı nəslin nümayəndələri müharibəyə yollanan əzizlərinin yolunu gözləməyin acı iztirabının nə demək olduğunu yaxşı bilirlər. Çünki müharibə həm də psixoloji, sosioloji, ictimai bəladır...



Onun da təhsil almağa çox böyük həvəsi olub. Xurs kəndində doğulub böyüyən Tutu nənənin bu həvəsi onu bir qədər uzaqlara aparıb. Bir müddət qonşu kənddəki ev şəraitində açılan yeni məktəbdə ibtidai təhsil alıb. Lakin məlum repressiya onun da bu arzusunu ürəyində qoyub. Gənc yaşında atası müharibənin gedər-gəlməzinə yollanıb. Ardınca isə qardaşları İkinci Dünya müharibəsi iştirakçısına çevriliblər. İndi də Tutu nənədən o illəri soruşanda üzündəki dərin hüznü, nisgili, həsrət dolu iztirabı hiss edirsən. Nəvələrinin xoş güzəranını seyr edib fərəhlənsə də, kaş ki o gəncliyi indi yenidən yaşamaq imkanım olaydı, – deyir, bəlkə də... Dodaqları əsə-əsə dediyi, sadəcə, bir cümləni xatırlayıram: "Biz o günlərimizin hər birini sonuncu gün kimi yaşayırdıq".

Şükürlər olsun ki, həyat davam edir. Qarşıda onları yeni həyat gözləyirdi. Sevgi hər zaman təsəllidir, həyat eşqini daha da alovlandıran bir qüvvədir. O sevgi ki ağır müharibə illəri belə, ona qalib gələ bilməz. Uzun müddət, sadəcə, ürəklərdə yaşayan bu sevgi, nəhayət ki, iki gənci qovuşdurub.

Ailə qurduqları ilk illərdə 11 nəfərlə birotaqlı, balaca, köhnə bir evdə qalsalar da, mehriban və xoşbəxt yaşayıblar. Ailəni dolandırmaq üçün bir neçə yerdə işləməli olub Mahmud kişi. Gənc müəllim müxtəlif illərdə təyinatla pedaqoji fəaliyyət göstərib. Ömrünün 60 ilə yaxınını gənc nəslin bilikli, savadlı böyüməsinə həsr edib. Müəllimlik fəaliyyətinin son və uzunmüddətli ünvanı isə doğma kəndi Bist olub. O dövrdən başlayaraq rahat, firavan həyatın ilğımları gənc ailənin başının üzərində sayrışıb. Uzun illərdən bəri çəkilən əziyyətin, zəhmətin bəhrəsini görməyə başlayıblar. Yeni tikilən ev, qurulan təsərrüfat Mahmud kişinin də, Tutu nənənin də ürəyini fərəhlə doldurub.

Kənd şəraitinin bütün imkanlarından istifadə edən zəhmətkeş ailə, xüsusilə arıçılığa böyük maraq göstərib. Övladları onların arıçılıq ənənələrini bu gün də davam etdirir. Bu gündək "ömür sürən" arı ailələrinin sayı genişlənərək hazırda 120-yə çatıb.

Mahmud Tahirov peşəkar müəllim kimi tanınmaqla bərabər, həm də qayğıkeş ata, mehriban həyat yoldaşı, sevimli babadır. 70 illik ailə həyatından söz açan Mahmud müəllim deyir: "Uzun ömürlülüyün sirri mehribanlıqdı. Nə qədər ki ailədə hörmət və ehtiram var, hər kəs öz yerini bilir, o ailənin təməli möhkəm olur. Ailədə tərbiyə əsas rol oynayır. Ata-ana mehribandırsa, uşaqlar da mehriban yaşayacaq. Ən böyük sərvətimiz övladlarımızdır. Hərəsinin ailəsi, evi, işi, yaxşı gün-güzəranı, şəraiti var. Onlarla fəxr edirəm".

Ailədə qadına, anaya hörmətin əsas şərt olduğunu bildirən Mahmud baba son illər boşanmaların sayının artması və uzunömürlü ailələrin sayının azalmasına bu cür aydınlıq gətirdi: "Ailə bir dövlətdir. Necə ki dövlətdə hərc-mərclik baş verərsə, dağılıb məhv olar, ailə də onun kimi. Ailədə söz bir olmalıdır. İndiki gənclərdə dözümsüzlük var, qızım. Bu nədir belə? Bu gün rahat yaşayış üçün hər şərait var. Buna baxmayaraq, cəmi 1-2 övlad böyüdən insanlar ailələrin dəyərini bilmirlər. Adi bir sözü münaqişəyə çevirib ailəni dağıdırlar.

Qızım, unutmayın ki, ailə böyük bir dəyərdir. Ailəyə məhəbbət xüsusilə lazımdır. Gərək gənclərimiz ailəsinin qədrini bilsinlər. Dövlətimiz ailələrin rifahı, onların qorunub saxlanılması üçün bütün işləri görür. Elə 70 illik yubileyimiz qeyd ediləndə, fərəhdən sanki ikinci gəncliyimi yaşadım. Sağ olsun, dövlətimizi! Həm maddi, həm də mənəvi dəstək olur, rahat yaşayışımız üçün hər cür şərait yaradır. Ancaq gərək insanlarımız da bu şəraitdən istifadə edib ailələrinin qədrini bilsinlər. Artıq o müharibə illərinin ağrı-acıları yoxdur. Yaşamaq çox rahatdır. Bu günlərin qədrini bilmək lazımdır".

"Boş vaxtlarını nəvələri ilə keçirməyi xoşlayır. Ailəsinə çox bağlı insandır. Mənə, uşaqlarına, gəlinlərinə şeirlər ithaf edib. Xatirə dəftəri bir şairin kitabına bənzəyir", – deyən Tutu nənə də söhbətə qoşulur. Onun simasında əsl qadın xoşbəxtliyini sezmək heç də çətin deyil: "Çox xoşbəxtəm. Mehriban ailəm var. Nəvə-nəticələrim bizi hər zaman ziyarət edir, hörmətimizi saxlayırlar. 70 il uşaqlarımızla birgə mehriban ömür sürməkdən xoşbəxt nə ola bilər ki?"

Onlar xoşbəxtlikləri ilə əsl Azərbaycan ailə modelini layiqli şəkildə nümayiş etdirirlər. 7 övlad böyüdən ailənin 15 nəvəsi və 10 nəticəsi var. Mən də çox qürurluyam ki, belə nümunəvi ailənin bir üzvüyəm. Babamla, nənəmlə fəxr edirəm. Ona görə yox ki, onlar uzun ömür yaşayırlar. Ona görə ki, onlar bu uzun ömrü mənalı yaşayıb, əsl ailənin nə olduğunu bizə aşılayıblar. Budur onları bizim üçün nümunə edən. Qoy hələ nəticələrinə toy etmək də nəsib olsun onlara!

Bu gün Mahmud babam da, Tutu nənəm də ömürlərini qayğısız, rahat yaşayırlar. Çünki onların ailəsinin təməli sağlam qoyulub. Təməli möhkəm olan ailə isə sağlam cəmiyyət deməkdir. Onlara 100 illik yubiley, müasirlərimə isə bu xoşbəxt hekayəni davam etdirmək arzusu ilə...

✍ **Gülcamal TAHİROVA**

## Güləşçilərimizdən iki medal



*Bakı şəhərindəki "Sərhədçi" İdman Olimpiya Mərkəzində Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyinə həsr edilən sərbəst güləş üzrə açıq kubok yarışı keçirilib.*

Turnirdə 45, 48, 51, 55, 60, 65, 71, 80, 92 və 110 kiloqramda çıxış edən yeniyetmə sərbəst güləşçilər mübarizə aparıblar. Ölkənin 30-dan artıq klub və cəmiyyətindən 200-dən çox idmançı yarışda qüvvəsini sınayıb.

Açıq kubok turnirində Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının idmançıları da iştirak edərək adlarını qaliblər sırasına yazdırıblar. Belə ki, 55 kiloqram çəki dərəcəsində Camal Qasımov fəxri kürsünün ən yüksək zirvəsinə qalxıb. 60 kiloqram çəki dərəcəsində isə Kamal Qasımov gümüş medal qazanıb.

Qalib idmançılarımız medal və diplomlarla təltif ediliblər.

## Futbol üzrə birincilikdə növbəti turun oyunları keçirilib



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, şəhər və rayon Gənclər və İdman idarələrinin təşkilatçılığı ilə gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə keçirilən gənclərdən ibarət kənd komandaları arasında futbol üzrə şəhər və rayon birinciliklərində növbəti turun oyunları olub.

Dövrə sistemi ilə keçirilən oyunlarda Naxçıvan şəhəri üzrə Qaraxanbəyli və Tumbul kənd komandaları üz-üzə gəlib. Görüş birincilərin 7:5 hesablı qələbəsi ilə başa çatıb. Şərur rayonu üzrə keçirilən görüşlərdə isə Muğancıq kənd komandası Müslüm kənd komandasını (6:1), Siyaqut kənd komandası Maxta kənd komandasını (4:2), Düdəngə kənd komandası Dizə kənd komandasını (6:2) məğlub edib. Babək rayonu üzrə keçirilən görüşdə Kültəpə kənd komandası Cəhri kənd komandasından güclü olub – 5:2. Culfa rayonunda iki oyun keçirilib. Belə ki, Camaldın-Kırna və Xanəgah-Əlincə görüşlərində birincilər qələbəni bayram ediblər – 3:1 və 8:7. Ordubad rayonunda Kələntərdizə və Sabirkənd kənd komandaları qarşılaşıb və görüş birincilərin qələbəsi ilə yekunlaşıb – 3:0. Sədərək rayonu üzrə keçirilən oyunda Kərki kənd komandası Qaraağac kənd komandasından güclü olub – 4:1. Şahbuz rayonunda da azarkeşlər iki görüşə şahidlik ediblər. Kükü kənd komandası Badamlı kənd komandasını (4:1), Gömür kənd komandası isə Kolanı kənd komandasını (4:0) məğlub etməyi bacarıb. Kəngərli rayonu üzrə keçirilən görüşdə azarkeşlər 9 qola şahidlik ediblər: Şahtaxtı-Xok 5:4.

✍ **Ceyhun MƏMMƏDOV**

## *"FaceApp"* təhlükəsi

*Müasir dövrümüzdə texnologiya sahəsi sürətlə inkişaf etməkdədir. Yeni texnologiyaların işlənib hazırlanması və həmçinin müvafiq olaraq kiberhücum metodlarının inkişaf etdirilməsi sistemlərin təhlükəsizliyinin yüksək səviyyədə təmin olunması zərurətini yaradır.*

Onu da vurğulamaq lazımdır ki, ideal təhlükəsizlik anlayışı yoxdur və faktiki olaraq hazırda qlobal məkanda təhdidlər kifayət qədər genişdir. Məhz bu faktorları əsas götürdükdə mühitin təhlükəsizliyinin çoxşəbəkəli mexanizm əsasında qurulması ən düzgün seçimdir. Müasir dövrümüzdə gənclərimiz internet şəbəkələrində yayılan oyunların və digər əyləncəli proqramların belə təhlükələrini nəzərə almırlar. Son zamanlar gənclərin sevimlisi olan şəkilləri qocaldan "FaceApp" mobil proqramı bu günlərdə sosial şəbəkələrdə, eləcə də həm "AppStore"da, həm də "Google Play"də ən populyar proqramlardan biridir. Təkcə "Google Play"də qeyd olunan proqramı 50 milyondan çox istifadəçi yükləyib. Bu proqram insanları əyləndirir, istifadəçilərə yaşlananda necə olacaqlarını görmək imkanı verir və bu zaman real görüntülər yaradaraq milyonlarla insanı əhatə edən böyük auditoriyanı cəlb edir. Populyarlığın əsas səbəbi də budur.

Qeyd edək ki, bu, 2017-ci ildə yaradılmış proqramın yeni funksiyasıdır. Neyron şəbəkələr bazasında çalışan həmin proqramı Rusiyanın "Wireless Lab" şirkəti hazırlayıb. Hesab edirik ki, insanların fotolarını qocaldan "FaceApp" proqramı istifadəçilərin məxfi məlumatlarını üzə çıxarır. Fikrimizcə, bu, onlar üçün riskdir. "FaceApp" istifadəçinin xəbəri olmadan albomlardakı hər hansı bir fotoşəkildən istifadə edə bilər. Diqqətinizə çatdıraq ki, fotoşəklini, adını və digər məlumatlarını paylaşan istifadəçi rəqəmsal olaraq müdafiəsiz qala bilər. Proqram onun yükləndiyi cihazlar vasitəsilə məlumat toplayır. Təbii ki, istifadəçini üzdən tanıyır, onun İP ünvanını və yüklədiyi digər proqramları bilir, yəni özü üçün həmin istifadəçinin profilini formalaşdırır. Beləliklə, sizə aid informasiyaların kimin əlinə keçə biləcəyini yalnız proqramın yaradıcıları bilir.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin Elektron Təhlükəsizlik Mərkəzi gənclərimizi təhlükəsizlik baxımından "FaceApp" proqramına aludə olmamağa çağırır. Eyni zamanda kompüterinizə və ya smartfonunuza yüklədiyiniz proqramlara, o cümlədən brauzerdəki genişləndirmələrə nəzər salmanızı, istifadə etmədiyiniz və ya çox da lazım olmayan proqramları silmənizi tövsiyə edir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin Elektron Təhlükəsizlik Mərkəzi***

### *İtmişdir*

Qasımov Rəfail Əli oğlunun adına olan 004013 nömrəli Azərbaycan Vətən Müharibəsi veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Xətai məhəlləsi 31/20 ünvanında yaşayan Məmmədov Abdulla Məmməd oğlunun adına olan A-006973 nömrəli torpaq sahəsinin planı və ölçüsü və MH-0047720 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Tumbul kəndində yaşamış Nəbiyev Nəbi Tarverdi oğlunun adına olan JN-054A inventar nömrəli, 10307028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

**ŞƏRQ** *qapısı*
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Gülcamal Tahirova
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1495. Sifariş № 546